# Qüdrətli Azərbaycanda genişmiqyaslı bərpa-quruculuq

## Dövlət başçısının müəllifi olduğu yeni reallıqlar, Qarabağla Şərqi Zəngəzurun müasirliyi və qədimliyi ehtiva edən dirçəlişi bütün ölkələr üçün nümunəyə çevrilir

**Bu gün hər birimiz müharibədən sonra Qarabağ və Şərqi Zəngəzurda başlayan quruculuq işlərinin şahidi oluruq. Dövlət bütün imkanlarını işğaldan azad olunmuş torpaqlarımızda həyatın canlanmasına, keçmiş məcburi köçkünlərin tezliklə öz el-obalarına qayıtmasına səfərbər edib. Artıq Zəngilanın ilk ağıllı kəndində, Ağalıda sakinlər yaşamağa başlayıb. Zəngilan rayonunda 3 kəndi birləşdirən bu layihənin ilin sonuna başa çatması gözlənilir. Qısa zaman içərisində inanılmaz işlər görülüb. Yeni avtomobil və dəmir yolları, körpülər, tunellər, hava limanları, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su elektrik stansiyaları tikilib. Zəngəzur dəhlizi artıq reallıqdır. Bu dəhlizin tərkib hissəsi olan avtomobil və dəmir yolunda da işlər sürətlə davam edir. Qarabağda təkcə evlər deyil, dini və mədəni abidələr də bərpa edilir. Əlavə olaraq bir neçə kəndin də planı təsdiqlənib. Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçilib. Yaxın gələcəkdə o kəndlərin də layihələri icra ediləcək. Ağdam şəhərinin baş planı təsdiqlənib, digər şəhərlərin baş planının təsdiqlənməsi nəzərdə tutulur.**

Vaxtilə ermənilərin illərlə xarabalığa çevirdiyi şəhər və kəndlərimiz indi tikinti meydanını xatırladır, ən ucqar ərazilərdə belə müasir həyat standartları yaradılır. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri Azərbaycanın öz daxili imkanları hesabına əzəmətli və nəhəng layihələri həyata keçirdiyini dünyaya nümayiş etdirir. Bunlar Prezident İlham Əliyevin göstərişi ilə başlanmış işlərin miqyasının genişliyini göstərir və ən önəmlisi odur ki, iqtisadi inkişaf planları işğaldan azad olunmuş bütün rayonları əhatə edir. Sadəcə, burada Prezidentin vurğuladığı kimi, zaman məsələsi var. Dövlət başçısı deyir: "Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq". Bugünkü güclü Azərbaycanın bütün bu işləri görməyə qadir olduğunu bildirən Azəbaycan Prezidenti vurğulayıb: "...siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq".

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı tarixi bir hadisədir. Hava limanının açılışı həm siyasi, həm də iqtisadi baxımdan Azərbaycanın gücünə güc qatacaq. Füzuli Beynəlxalq Hava Limanı ilk növbədə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin sürətləndirilməsinə imkan verəcək, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan rayonların investisiya imkanlarını da artıracaq. Bu hava limanı dünya tarixində minalanmış ərazidə qısa müddət ərzində - cəmi 8 ayda tikilən ilk aeroportdur. Buradan Şuşaya Zəfər yolu uzanır. Həmçinin Füzuliyə, Ağdama, Cəbrayıla, Zəngilana, Qubadlıya gedən qonaqlar da hava limanından istifadə edə biləcəklər. Strateji əhəmiyyətə malik avtomobil və dəmir yollarının keçəcəyi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanda tikilən beynəlxalq hava limanı regionun inkişafında böyük əhəmiyyət daşıyacaq. Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Hava limanının təməl daşı 2021-ci il aprel ayının 26-da Prezident İlham Əliyev tərəfindən atılıb və iki mərhələdə istismara veriləcək. Laçın Hava Limanı Şərqi Zəngəzurda fəaliyyət göstərməklə hərbi və strateji əhəmiyyəti ilə yanaşı, eyni zamanda iqtisadi üstünlüklərə də malik olacaq. Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə Füzuli hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri Zəngilan hava limanıdır. Digəri isə Laçın rayonunun ərazisində inşa olunacaq. Zəngilan-Füzuli-Qubadlı kimi çoxsaylı istiqamətlərdə ən müasir standartlara cavab verən avtomobil yolları inşa olunur. Hazırda işğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər sürətlə davam etdirilir. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməlinin qoyulması, Laçın rayonunda Güləbird Su Elektrik Stansiyasının açılışı, Zəngilan rayonunda "ağıllı kənd" layihəsi göstərir ki, Prezidentimizin əzmi və qətiyyəti, uzaqgörən siyasəti sayəsində ərazilərimiz tez bir zamanda bərpa olunacaq. Azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilib. Həmçinin çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkilib. Təbii ki, işğaldan azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin uğurlu icrası həm bu bölgə, həm də bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu gün işğaldan azad edilmiş ərazilərdə geniş həcmli tikinti-quruculuq, abadlıq işlərinin görülməsi yaxın gələcəkdə regionun turizm sənayesinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Şərqi Zəngəzur Qafqazda qış, yay, müalicəvi, tarixi, dini turizm imkanları ilə seçilən bölgələrdəndir. Böyük turizm potensialı həmin bölgələrimizdə qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcək. Azərbaycan dövləti Qarabağı çox güclü dinamik inkişaf edən bir iqtisadi rayona çevirməklə bərabər, Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına da böyük önəm verir. Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatı, dağ-mədən sənayesi və turizmin inkişafı üçün böyük resurs var. Oradakı torpaqların əkinə tam cəlb edilməsi ilə taxıl idxalını sıfıra endirmək mümkün olacaq.

Bu gün dünyanın gözü qarşısında Azərbaycan dövlətinin ortaya qoyduğu qüdrəti, Qarabağda ildırımsürətli bərpa və quruculuq işlərinin təməli hələ müharibədən uzun illər əvvəl böyük məharətlə konsepsiya şəklinə salınmış siyasi xəttin təzahürü olaraq iqtisadi gücümüzü nümayiş etdirir. Azərbaycan dövləti bütün diqqətini Qarabağ və Şərqi Zəngəzurun sürətlə dirçəlməsinə yönəldib. Bu addımlar yalnız cari şəraitə uyğun yox, gələcək planlar nəzərə alınmaqla yerinə yetirilir. Müharibədən sonrakı dövrdə qısa zaman ərzində ölkəmizin imkanları hesabına, dost ölkələrin nüfuzlu şirkətlərini cəlb etməklə bir beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, yaxın perspektivdə daha iki hava limanının tikintisinin nəzərdə tutulması, işğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, Azərbaycanın əsas hissəsini Naxçıvan və daha sonra qardaş Türkiyə ilə bağlayacaq Zəngəzur dəhlizinin əsasının qoyulması və son nəticədə bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi potensialının yaradılması, habelə enerji təminatı məsələlərinin həll edilməsi, ən qabaqcıl texnologiyalar əsasında yaşayış məskənlərinin və istehsal obyektlərinin yaradılması istiqamətində görülən işlər İlham Əliyevin formalaşdırdığı yeni reallığın konturlarını aydın göstərir. Dövlət başçısının müəllifi olduğu yeni reallıqlar, Qarabağla Şərqi Zəngəzurda yaradılan son mənzərə Azərbaycanın uğurlu bərpa və quruculuq modelini bütün ölkələr üçün nümunəyə çevirir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 22 iyul.- S.6.